# Zəfər Günü ilə Azərbaycanın yeni inkişaf, tərəqqi mərhələsi başlayıb

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, tapdaq altındakı torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən başladığı zəfər yürüşündə böyük uğurlar qazandı, qələbə əldə etdi.***

Döyüşlər getdiyi 44 gün ərzində Silahlı Qüvvələrimiz tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz, Xocavənd rayonunun Hadrut qəsəbələri və bir çox yaşayış məntəqələri, Tərtərin Suqovuşan, habelə Xocalı və Laçının bir neçə kəndi daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış sahəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər düşməndən təmizləndi.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün mühüm önəm və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad olundu. Qarabağın tacı olan Şuşa şəhərinin yağılardan alınması dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biri kimi xalqımızın tarixinə qızıl hərflərlə yazıldı.

Azərbaycanın hərbi sahədə qazandığı möhtəşəm uğurlar, xüsusilə Şuşanın düşməndən təmizlənməsi Vətən müharibəsinin taleyində həlledici rol oynadı. Ən başlıcası isə Ermənistanın öz məğlubiyyətini etiraf etməsini və kapitulyasiyasını şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna önəm daşıyan bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-nin respublikamızda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alındı.

Şuşa işğal edildiyi gündən-1992-ci il mayın 9-dan ötən 28 ildə heç kimdə Şuşanın nə vaxtsa yağı tapdağından xilas olunacağına şübhə yox idi. Xalqımızda o günün tezliklə gələcəyinə, doğma Qarabağımızın "döyünən ürəyinin" düşməndən azad ediləcəyinə qəti əminlik vardı. Bu inamı, ümidi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan güc-qüdrəti yaratmışdı.

Ötən il sentyabrın 27-də başlanan əks-həmlə əməliyyatları ilə Silahlı Qüvvələrimiz addım-addım Şuşaya yaxınlaşırdı, bu, dövlətimizin başçısının dediyi kimi, uğura bir nəfəs qədər yaxın olduğumuzdan xəbər verirdi, müzəffər Ali Baş Komandanımızın Türkiyə mətbuatına verdiyi müsahibələrin birində "Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar" - söyləməsi də bu qələbəyə yönələn ümid və əminliyimizi daha da artırırdı.

Nəhayət, o gün gəldi. Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Dövlətimizin başçısı müraciətində, həmçinin bu qədim şəhərimizin Azərbaycan tarixində xüsusi yer tutduğunu, azərbaycanlıların əsrlərboyu burada yaşayıb-yaratdıqlarını bildirdi. Prezident daha sonra əlavə etdi ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi, məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi, məscidlərimizi bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir: "Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır".

Azərbaycan Prezidenti müraciətində, həm də xalqa Şuşanın işğaldan azad edilməsi müjdəsini verməsini həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Şuşanın faşizm caynağından azad edilməsi Azərbaycan Ordusunun bütün güc-qüdrətinin, dünyanın ən müasir orduları sırasında yer aldığının, əsgər və zabitlərimizin igid, cəsur və qorxmazlığının, peşə bacarığı və ruh yüksəkliyinin təsdiqi idi. Şuşa qələbəsi ermənilərin "məğlubedilməz ordusu" haqqında mifinin, yalanının, uydurmasının alt-üst edilməsi demək idi. Bu, həm də Prezident, Ali Baş Komandan İlham Əliyevin əsl siyasətçi, diplomat və sərkərdə kimi fəaliyyətinin məntiqi nəticəsi idi.

Şuşanın azad edilməsində möhtəşəm qələbə əldə edən Azərbaycan Ordusunun şücaəti, fədakarlığı ilə bağlı ötən bir il ərzində istər yerli, istərsə də xarici hərbi ekspertlər tərəfindən çoxsayda fikirlər səsləndirilib. Onların bildirdikləri kimi, tanksız, topsuz, artilleriyasız, göydə 3-cü Ordumuza çevrilən pilotsuz kamikadzelərin müşayiəti olmadan 1500-1800 metr yüksəkliklərdə döyüşlər apararaq bu qala şəhərinə daxil olmaq hazırda onlarla dövlətin və silahlı qüvvələrin hərbi taktikasının heyrətamiz istinadgahlarından birinə çevrilib. Hələlik isə o döyüşlər barədə xarici təhlilçinin bir fikrini oxucularla bölüşmək istərdim.

Əvvəlcə onu xatırladaq ki, bu cür dəyərləndirmə ordumuzun, xalqımızın döyüş əzmi, mübarizliyi, qəhrəmanlığı haqqında aydın təsəvvür yaradır. Ukraynalı hərbi analitik Aleksey Arestoviçin bu barədə yazdıqları bunun bariz ifadəsidir: "…Azərbaycan əsgəri Şuşanı piyada döyüşləri ilə, daşına bilən ağır sursatlarla, duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı. Azərbaycan əsgəri Şuşanı PUA-larsız, tanksız, artilleriyasız işğaldan azad etdi. Bu, "hər şey dronlarla edildi " deyənlərin nə qədər haqsız, ədalətsiz olduqlarını bir daha təsdiqlədi. Bu, israillilərin 1967-ci ildə Ağlama Divarına çıxmasına bərabər, bəlkə də ondan üstün bir döyüş idi. Bu, Vətənə qayıdış, ədalətli Tarixə qayıdış idi. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu?!. Sualı cavablandırmaq, nə isə demək, danışmaq çox çətindir. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə dərmədən qalxırdı üzü dağ yuxarı Şuşaya doğru Azərbaycan əsgəri…"

İstər Şuşanın, istərsə də digər rayon və şəhərlərimizin, düşmənin yiyəlik etdiyi yüksəkliklərin yağıdan təmizlənməsinə Azərbaycan 30 il idi ki, hazırlaşırdı. Bu müddətdə ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu ordumuz dahi şəxsiyyətin müdrik varisi Prezident İlham Əliyev tərəfindən möhkəmləndirilərək, güclü-qüdrətli Silahlı Qüvvələrə çevrilmişdi və işğalçını torpaqlarımızdan qovmaq üçün Ali Baş Komandanın əmrini gözləyirdi.

Dövlətimizin başçısı münaqişənin davam etdiyi illərdə çox böyük uzaqgörənlik və təmkinlə həm də diplomatik sahədə təxirəsalınmaz tədbirlər reallaşdırırdı. İştirakçısı olduğu ən yüksək beynəlxalq mərasimlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan edir, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpaqğı olduğunu və işğaldan azad edilməsinin labüdlüyünü çatdırırdı.

Beləliklə, Prezident İlham Əliyevin qətiyyətli siyasəti Ermənistan və onun havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Dövlətimizin başçısı müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Prezident İlham Əliyev müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Hərbi əməliyyatların aparılmasında Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirirdi.

Müharibə getdiyi günlərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana böyük siyasi və mənəvi dəstək göstərirdi. Savaş dövründə ordumuzun zəfər yürüşündən fərəh hissi keçirən, "Azərbaycandan xoş xəbərlər aldıqca çox qürurlanırıq, sevinirik" – deyən qardaş ölkə rəhbəri bu sözləri ilə istər ağır, istərsə də xoş günlərimizdə Azərbaycanın yanında olduğunu, sevincimizi bölüşdüyünü bütün dünyaya nümayiş etdirirdi.

Ümumiyyətlə, Türkiyə və Azərbaycanın möhkəm, sarsılmaz birliyi Vətən müharibəsi günlərində özünü qabarıq büruzə verdi, Türkiyə hər zaman olduğu kimi, yenə də Azərbaycanın yanında oldu, tarixi zəfəri bizimlə birgə yaşadı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Qarabağda qazanılan zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır", –bildirdi. Daha sonra "Azərbaycan kimsənin torpağına əl uzatmadı, göz dikmədi, kimsəyə hücum etmədi. BMT və ATƏT qərarlarına rəğmən 30 il işğal altında saxlanan torpaqlarını azad etdi. Bunu da ermənilər kimi dinc insanların yaşadığı yeri hədəf almaqla deyil, qanun çərçivəsində gerçəkləşdirdi",-deyə vurğuladı.

Bu qələbə ilə Azərbaycan pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarında olduğunu bütün dünyaya sübut etdi, ərazi bütövlüyünün bərpası uğrunda vuruşub qələbə əldə etmək gücünü göstərdi. Eyni zamanda, bizi haqq işimizdən heç bir qüvvənin çəkindirə bilməyəcəyini təsdiqlədi.

Azərbaycan parlaq, möhtəşəm Zəfər Günü ilə yeni inkişaf, tərəqqi mərhələsinə daxil oldu. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, döyüş meydanında, siyasi müstəvidə qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni dövr açıldı.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***



*Vətən müharibəsində Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***